*UOT 37.01*

***Zaur Yədulla oğlu Ağazadə***
*Lənkəran Dövlət Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0001-5539-9739*
*E-mail: z.ağazade@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).111-116*

# ELMİ-PEDAQOJİ ƏDƏBİYYATDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

***Zaur Yadulla Aghazade***
*doctoral student in the program of doctor of philosophy at*
*Lankaran State University*

# ISSUES OF PATRIOTIC EDUCATION IN SCIENTIFIC AND PEDAGOGICAL LITERATURE

***Заур Ядулла оглы Агазаде***
*докторант по программе доктора философии*
*Лянкяранского Государственного Университета*

# РЕШЕНИЕ ВОПРОСОВ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

**Xülasə.** Vətən-ana, ana-vətən paralellərinin ideya-estetik yükü, eləcə də vətənpərvərlik tərbiyəsinin mahiyyəti barədə elmi-nəzəri, elmi-pedaqoji ədəbiyyatda kifayət qədər məlumatlar verilsə də, problemə geniş aydınlıq gətirmək zərurəti zamanın, dövrün ictimai-elmi, elmi pedaqoji sifarişidir. Çünki ictimai quruluşun əvəzlənməsi ilə yaranan fərqli yanaşmalar yaxın tariximizdən bəlli qənaətləri ortaya qoymuşdur. Bunu sovet təhsil sistemi ilə milli təhsil sistemimizin müqayisəsində daha aydın görmək mümkündür. İnsanın hərtərəfli inkişafı, yüksək insani keyfiyyətlərə yiyələnməsi, həqiqətdir ki, üç ən mühüm mərhələdən keçir; ailədən, məktəbdən, müstəqil həyatdan. Bunlar zəncir kimi bir-birilə qırılmaz tellərlə bağlıdır. Birində xəta baş verdikdə, digər vəsilələrdə, mərhələlərdə çətinliklər özünü göstərməyə bilməz.

"Vətənpərvərlik" anlayışına xüsusi önəm verilməsinin əsas şərti odur ki, ana körpəsinə, uşaq anasına bağlı olduğu kimi, hər bir ölkə vətəndaşı da öz vətəninə, doğulub böyüdüyü torpağına, ocağına, yurduna, bütövlükdə, Vətəninə bağlıdır.

Elmi-pedaqoji ədəbiyyatda vətənpərvərlik, eləcə də hərbi-vətənpərvərlik tərbiyəsinin mahiyyəti, problemin qoyuluşu və həlli məsələlərinə xeyli diqqət ayrılmışdır. Azərbaycanın pedaqoq alimlərinin, həmçinin xarici ölkə pedaqoqlarının elmi-nəzəri fikirlərində vətənpərvərlik tərbiyəsinin qoyuluşu və həlli məsələləri böyük maraq doğurur. Məqalədə həmin problemlərə aydınlıq gətirilməsi nəzərdə tutulmuşdur.

***Açar sözlər:*** *tərbiyə prosesi, elmi pedaqoji ədəbiyyat ,vətənpərvərlik ,hərbi vətənpərvərlik, əxlaq tərbiyəsi*

**Abstract.** Although the scientific-theoretical and pedagogical literature provides sufficient information about the ideological and aesthetic significance of the "motherland-mother" parallels and the essence of patriotic education, there remains a need for a deeper and broader clarification of the issue. This necessity arises from the socio-scientific and pedagogical demands of the current era. The transition in societal structures has led to different approaches, as seen clearly in the comparison between the Soviet education system and our national education system. The comprehensive development of a person and the acquisition of high moral values occur through three main stages: family, school, and independent life. These stages are closely interconnected, and a failure in one will inevitably affect the others.The emphasis on the concept of "patriotism" is due to the natural bond between a child and mother – just as every citizen should feel connected to their homeland, birthplace, and nation as a whole.

Scientific and pedagogical literature pays significant attention to the essence of patriotism and military-patriotic education, as well as the formulation and resolution of related issues.The scientific-theoretical perspectives of Azerbaijani and foreign educators spark great interest regarding the formation and solution of patriotic education challenges. This article aims to clarify these problems.

***Keywords:*** *education process, scientific pedagogical literature, patriotism, military patriotism, moral education*

**Аннотация.** Несмотря на то, что в научно-теоретической и научно-педагогической литературе достаточно широко освещаются идейно-эстетическая нагрузка параллелей «Родина-мать», «мать-Родина», а также суть патриотического воспитания, существует необходимость более глубокого и всестороннего анализа этой проблемы, что обусловлено требованиями времени, общественно-научной и педагогической действительности. Изменения в общественном строе привели к формированию различных подходов, что ясно проявляется при сравнении советской системы образования с национальной системой. Всестороннее развитие личности, овладение высокими человеческими качествами, безусловно, проходят через три важнейших этапа: семью, школу и самостоятельную жизнь. Эти этапы тесно взаимосвязаны, и ошибка на одном из них приводит к трудностям на остальных. Особое внимание понятию «патриотизм» обусловлено тем, что, как ребёнок привязан к матери, так и каждый гражданин должен быть привязан к своему краю, земле, очагу – к Родине в целом.

В научно-педагогической литературе вопросам сущности патриотического и военно-патриотического воспитания, их постановки и решения уделяется значительное внимание. Научно-теоретические взгляды как азербайджанских, так и зарубежных педагогов вызывают большой интерес в аспекте постановки и решения вопросов патриотического воспитания. В данной статье предусматривается прояснение именно этих вопросов.

***Ключевые слова:*** *процесс воспитания, научно-педагогическая литература, патриотизм, военно-патриотическое воспитание, нравственное воспитание*

**Giriş:** Milli-mənəvi dəyərlərimiz sırasında vətənpərvərlik xüsusi bir yer tutur. Vətənə sevgi bir çox məsələləri özündə birləşdirir. Vətən sevgisi doğma ocağa, ata-ataya, kəndinə, şəhərinə, yurd yerlərinə sevgidən qidalanır. Bu müqəddəs duyğu nəticəsində gənclərimiz yağıları müqəddəs torpaqlarımızdan qovub çıxara bildilər. 44 günlük Qarabağ savaşı bir daha sübut etdi ki, ən böyük silahımız, gücümüz, vətənə olan sevgimiz, vətənpərvərlik hisslərimizdir. Bu cəhətdən ümummilli lider H. Əliyevin 1996-cı il fevralın 2-də ölkə gənclərinin Birinci forumunda söylədikləri olduqca xarakterikdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz milli tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz...Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək, deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik" [7, s.357-358].

Ümummilli liderin layiqli davamçısı ölkə prezidenti İ. Əliyev işğaldan azad olunan Zəngilan rayonunun Ağalı kənd məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşdə demişdir: "Siz gərək bilikli olasınız, savadlı olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın" [8, s.55].

Elmi-pedaqoji ədəbiyyatda tərbiyənin mahiyyəti, məqsəd və vəzifələri xüsusən vətənpərvərlik tərbiyəsi haqqında maraqlı fikirlər söylənilmişdir. Belə bir fikir doğrudur ki: "Vətənpərvərlik hissi qədim tarixə malikdir. Ən qədim dövrdə insanlar mağara mühitində yaşasa belə, onlar öz mağarasının təəssübünü çəkmiş, onu yad təsirlərdən qorumuşlar. Lakin dövlətin yaranması ilə bu hisslər möhkəmlənmiş və əqidəyə çevrilmişdir [11, s.264].

Vətənpərvərlik tərbiyəsindən danışan pedaqoq alimlər bu müqəddəs hissin ailədə, daha sonra tərbiyə müəssisələrində, xüsusən ümumtəhsil məktəblərində əhatəli şəkildə yetişməkdə olan gənc nəslə aşılanması sahəsində zəngin təcrübənin toplandığı xüsusi olaraq qeyd edirlər.

Elmi pedaqoji ədəbiyyatda vətənpərvərlik tərbiyəsinin həlli məsələləri, dünyada olduqca

vacib proseslərin getdiyi, ölkəmizin də bu proseslərin içində layiqli yerini tutduğu bir zamanda xalq iqtidar birliyinin vacibliyini, aktuallığını bir daha ortaya qoyur.44 günlük Vətən savaşında əldə etdiyimiz uğurlar elmi ədəbiyyatda irəli sürülən müddəaların, qənaətlərin doğruluğunu təsdiq edir.

Qeyd olunan problemlərin həlli məsələləri ümumtəhsil məktəblərində eləcə də məktəbəqədər tərbiyə müəssisələrində fəaliyyət göstərən pedaqoqların, təhsil işçilərinin praktik fəaliyyətində nəzəri istiqamət olaraq mühüm əhəmiyyət kəsb edir.

**Əsas hissə**

Tərbiyə zamana, ictimai-siyasi sistemin mahiyyətinə, real vəziyyətə, milli adət-ənənələrə görə dəyişir, yeni keyfiyyətlər qazanır. "Çünki tərbiyə prosesində insanda elə bir inkişaf gedir ki, bu sonra onun tərbiyəsinə təsir etməklə onu dəyişdirir. Təhsil, bu insanın cəmiyyətdə inkişafı üçün yaradılan xarici şəraitlər sisteminin xüsusi təşkil olunmuş formasıdır. Xüsusi təşkil olunmuş təhsil sisteminə tərbiyə müəssisələri, ixtisasartırma idarələri və kadrların yenidən hazırlanması institutları daxildir. Burada yenə də xüsusi hazırlıq keçmiş pedaqoqların köməyi ilə nəsillərinin təcrübəsini onlara müvafiq məqsədlər əsasında, proqramlar və dərs vəsaitləri əsasında verilməsi və qəbul edilməsidir. Bütün təhsil müəssisələri dövlətdə vahid təhsil sisteminə birləşdirilmişdir ki, onların köməyi ilə insan inkişafının idarə olunması hayata keçirilir [6,s.6] Göründüyü kimi, tərbiyənin cəmiyyətin inkişafı ilə bağlı olduğu, proqram və dərs vəsaitlərinin buna nəzərən qəbul edilməsi, həyata keçirilməsi bildirilir. H. Əhmədov tərbiyə işinin istiqamətləri barədə danışarkən mənəvi tərbiyənin məzmununu əxlaq, vətənpərvərlik, milli-mənəvi və siyasi tərbiyə şəklində şərh edir, "vətənpərvərlik tərbiyəsi öz vətəninə sevgi məhəbbət və məsuliyyət hissinin formalaşması, hər an vətənin, xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması"; [6, s.84] demək olduğunu bildirir.

Yaşadığı torpağı vətən bilən yaradıcı ziyalılarımız zaman-zaman vətəndən söz açmış, ona sonsuz sevgilərini bildirmişlər. Elə zamanlar, elə anlar da olmuşdur ki, elindən, yurdundan ayrı düşən yurddaşlarımız vətən həsrəti ilə inləmiş, "Azərbaycan!" deyibən səslənmişlər. Sevgisindən, elindən ayrı düşən Almaz İldırımın "Əsir Azərbaycanım" şeirindən ucalan vətən həsrəti ədəbiyatımızda, milli – bədii düşüncəmizdə qərib-qürbət poeziyasının vətənə kökləndiyini, vətəndən, vətənpərvərlik hisslərindən qidalandığının bir daha sübut etməkdədir:

*Könlümə tək Kəbə yapdım səni mən,*
*Sənsiz neyləm qürbət eldə günü mən.*
*Sənsiz neyləm Allahı mən, dini mən,*
*Azərbaycan, mənim tacım, taxtım oy !*
*Oyanmazmı kor olası baxtım oy ?! [13, s.115]*

Bu yanıqlı misralar təkcə şeir deyildir, vətən həsrətiylə içdən yanan, alovlanan, harayına, ününə yetişilməyən bir Azərbaycan sevdalısının həsrət, qürbət duyğuları ilə yazdığı vətən və əxlaq tarixidir. Tarixin qaranlıq səhifələrində "Vətən" deyib inləyən nə qədər almas ildırımlarımız olmuş, böyük nisgillə həyatlarına vida etmişlər.

Tarixlərin ən həssas məqamı mənəviyyatımızla bağlıdır. Din, islam, iman uğrunda mübarizə tarixi ata deyimlərindən, Dədə Qorqud boylarından baş qaldırır, bizi sərvaxt olmağa, hər zaman A. Səhhətin təbirincə desək, "könlümüzün məhbubi, dostu" olan [14]Vətənə sevgimizi bildirməli, onu göz bəbəyi kimi qorumalıyıq. Məhz buna görə də vətənpərvərlik əməli fəaliyyət tələb edir. Təsadüfi deyildir ki, vətənpərvərlik özünü daha çox hərbi-vətənpərvərlik sahəsində fəaliyyətimizlə xarakterizə olunur.

İnsan özünü dərk edən gündən onun həyata baxışında, dünyagörüşündə vətənə sevgi duyğuları, vətənpərvərlik hissləri, bütün istəklərdən yüksəkdə durur. Bu sevginin kökləri, heç şübhəsiz, çox dərindədir. Prof. P.B. Əliyev hərbi-vətənpərvərlik problemlərindən danışarkən diqqəti qeyd edilən mətləbə yönəldərək demişdir: "Tarixi dərk, bizim köklərimiz, əvəzedilməz doğma yurd məfhumu, Vətənin taleyi, onunla qırılmaz əlaqə, cəmiyyət və dövlətdə baş verənlər üçün tarixi məsuliyyət, əcdadların əməllərinə bağlılıq və iftixar hissini özündə birləşdirir" [10, s.22]

Elmi və həyati təcrübə sübut edir ki, vətənpərvərlik zorla qəbul edilmir, bu duyğu hər bir insanın ruhunda, milli xarakterində yer almışdır. Ailə, xüsusilə məktəb bu hissin inkişaf etdirilməsində, sistemli təşkilində həlledici vəsilə olaraq diqqəti cəlb edir. Belə bir elmi-pedaqoji qənaət doğrudur ki: "Vətənpərvərlik məktəblilərin xüsusi özünüdərk və sosial davranış cəhətləri, şüurlu və könüllü mövqeləridir. Burada ictimai dövlət mövqeləri məhdudlaşdırıcı kimi deyil, fərdi azadlıq amili və vətəndaş cə-

miyyətinin hərtərəfli inkişaf şəraiti kimi çıxış edir" [10, s.22].

Tərbiyədə, xüsusən vətənpərvərlik tərbiyəsində varislik, ardıcıllıq, davam etdiricilik xətti mütləq gözlənilməlidir. Qazanılmış, əldə edilən uğurlar möhkəmləndirilməli, inkişaf etdirilməlidir. Görkəmli rus pedaqoqu K.D. Uşinski bu haqda danışarkən demişdir; "Tərbiyə etdiyimiz uşaqlarda möhkəmləndirdiyimiz adət və vərdişlərin onlar üçün nəinki faydalı, hətta zəruri olması lazım gəldiyinə dair danışıq belə lazım deyil. Şagird hər hansı bir adəti və ya vərdişi qazandıqdan sonra ondan istifadə etməyi bacarmalıdır, lazım olmayan bir şey kimi onu atmağa məcbur olmamalıdır. Əgər yuxarı siniflərin müəllimi uşaqlarda kiçik sinfin müəllimləri tərəfindən möhkəmləndirilmiş adət və vərdişlərə heç bir şey yetirmirsə, yaxud, onları yeniləri ilə tamamilə zidd olan adət və vərdişlərlə heçə çıxarırsa bu daha pisdir, bu yol ilə xarakter yaradılmır, əksinə, zəifləndiririk..." [16, s.30].

K.D. Uşinskinin bu fikirləri birbaşa vətənpərvərlik tərbiyəsi barədə olmasa da ,maraqlı elmi qənaətlərlə diqqəti çəkməkdədir. Hədəf yetişməkdə olan nəslin milli-mənəvi dəyərlərlə hörmət ruhunda tərbiyə olunmasıdır.

Vətənpərvərlik bir neçə cəhətdən insanı sınağa çəkir. Sınaq zamanı şəxsin vətən sevgisi ortaya çıxır, Vətənin şirinliyi, müqəddəsliyi bütün varlığına hakim kəsilir. Bunlardan ən birincisi, vətən darda olanda, ölkə qəsbkarla, işğalçı ilə üz-üzə qalanda "Vətən",-deyib sinəsini sipərə çevirir, vətən yolunda qazi olur, yaxud şəhidlik zirvəsinə ucalır. İkinci sınaq məqamı vətəndən ayrı düşəndə baş verir. Bu hissi yaşayanlar bilir. Ən gözəl məkanda belə çox qala bilmirsən, günlərini sayırsan, vətəni görməyə can atırsan Bu böyük hissi, sevgini uşaq yaşlarından kiçikyaşlı məktəblilərə aşılamaq olduqca vacibdir.

Bir çox dərs vəsaitlərində, dərsliklərdə, monoqrafiyalarda tərbiyənin məzmunu haqqında danışılarkən mənəvi dəyərlərinə əhatə etdiyi milli-mənəvi kateqoriyalar sırasında vətənpərvərlik tərbiyəsinin keyfiyyət göstəriciləri sırasında aşağıdakılar sadalanır: "Azərbaycan Respublikasının ərazisi, uca dağları, müxtəlif ağaclı meşələri, gen dənizləri, çayları, gölləri, çölləri, düzənləri, mədəniyyət və incəsənət inciləri, alimləri, sərkərdələri, böyük keçmişi, vətən eşqi, vətən sevgisi, vətənə qayğı, vətənin daha da çiçəklənməsi üçün var qüvvəsi ilə çalışmaq, vətən naminə vuruşa hazır olmaq, tarixdə vətənpərvərlik nümunələri göstərmiş şəxsləri unutmamaq və s. vətənpərvərlik tərbiyəsinin məzmununu təşkil edir [1, s.31].

Mövzu elmi-pedaqoji ədəbiyyatlarda geniş müzakirə predmetinə çevrilmiş, zaman-zaman məsələ müxtəlif elmi-nəzəri baxışlardan çözülmüş, problemə aydınlıq gətirilməsinə çalışılmışdır.

Pedaqoji ədəbiyyatda deyilir: "Tərbiyə hər bir cəmiyyətdə ailə, bağça, məktəb tərəfindən həyata keçirilir. Ailə cəmiyyətin özəyidir. Cəmiyyətin inkişafı bu və ya digər dərəcədə ailənin inkişafı ilə bilavasitə əlaqədardır. Ailə özünəməxsus funksiyalara malikdir. Bu funksiyalardan biri də yeni nəslin tərbiyəsidir" [2, s.22].

Məlumdur ki, ailədə aparılan tərbiyə işi konkret plan və proqram əsasında aparılmır. Bu sahədə yol verilən boşluqlar ailədən gələn bir çox uşaqların tərbiyə işində problemlər yaratması ilə müşahidə olunsa da, məktəb problemi həll edən bir vəsilə olaraq çıxış edir. Bu baxımdan elmi ədəbiyyatda haqlı olaraq deyilir: "Məktəbdə tərbiyə işi məqsədyönlü və planauyğun təşkil olunur. Yəni I sinifdən məktəbin sonuna qədər uşaqların tərbiyəsi və inkişafı ilə əlaqədar tərbiyəvi iş planı hazırlanır" [2, s.23].

Yaşadığımız dövr çətin proseslərin davamı kimi formalaşmış uzun müddət tərbiyə, mənəviyyat məsələsində insanların, xüsusən gənc nəslin Şərq kontekstindən, milli mənlik düşüncəsindən təcrid edilərək yalançı beynəlmiləl tərbiyə təbliğ olunmuş, tərbiyədə yanlış nəticələrin əldə olunmasına hesablanmışdır. "Halbuki, mili mənliyi, milli ləyaqəti olmayan vətən övladı, sözün həqiqi mənasında, beynəlmiləlçi də ola bilməz. Öz xalqını, vətənini sevməyən şəxs, heç vaxt başqa xalqı, milləti də ürəkdən sevməz" [2, s.80].

Tərbiyə işində islam dininin imkanlardan istifadə olunması məsələsi də diqqətdən yayına bilməz. Haqlı olaraq deyilir ki, "Dinimiz adamları elmə, xeyirxah işlər görməyə, böyüyə, valideynə hörmət bəsləməyə çağırır, insanpərvərlik, vətənə məhəbbət, mənəvi keyfiyyətlərə yiyələnməyi təbliğ edir. Bir də əgər din gənc nəslin vətənin ləyaqətli oğlan və qızları kimi tərbiyə olunmasına kömək göstərirsə, niyə onun tərbiyəvi imkanlarından istifadə olunmasın" [2, s.81].

Göründüyü kimi tərbiyə, xüsusən, əxlaq, vətənpərvərlik tərbiyəsi çoxcəhətli prosesdir. Vətənpərvərlik şəxsi nümunə, örnək tələb edir.

Çünki vətənpərvərliyin mayasında fədakarlıq motivi vardır. Fədakarlıq etməyi bacarmayan şəxs vətənpərvərlik ucalığına yiyələnə bilməz. M.F. Axundzadənin vətənpərvərlik anlayışına verdiyi dəyər buna əyani sübutdur. Ədib "Kəmalüddövlə məktubları" əsərində Hindistan şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüd dövləyə ikinci məktubunda, vətən, xalq, millət, xalqa rəhbərlik məsələlərindən danışarkən vətənpərvərliyi yüksək qiymətləndirərək belə yazmışdır: "Çünki xalq belə bir padşahı əmin amanlıq, ədalət və sədətin dayağı hesab edir. Onun sayəsində patriot olar" M.F. Axundzadə həmin səhifənin sonunda "patriot" kəlməsinə aydınlıq gətirərək deyir: "Patroit-ibarətdir o kimsədən ki, vətən təəssübü və millətin məhəbbəti üçün can və malına müzayiqə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadlığı üçün çalışa və cəfalara dözə. Bu halət və xasiyyət həmişə qeyrətli şəxslərdə büruzə edər" [4, s.211].

Vətənpərvərlik, vətəni tamlığı ilə tanımaqla daha da möhkəmlənir. Buna görə də təkcə vətənin ərazisini, təbiətini, yerüstü və yeraltı sərvətlərini bilməklə, onlarla qürur hissi keçirməklə əxlaqi prinspə çevrilmir. Vətənpərvərlik həm də mənsub olduğun xalqa məxsus milli dəyərləri sevib qorumaqdır, xalqın içindən yetişən şəxsiyyətləri, dünya şöhrətli elm və mədəniyyət xadimlərini tanımaq və sevmək deməkdir. Sevmədən sevdirmək olmaz. Elmi-pedaqoji ədəbiyyatda haqlı olaraq deyilir. "Vətənsevərlik əxlaq tərbiyəsinin mühüm komponentlərindən biridir. Vətənsevərlik hissi vətənlərin yaranması ilə insanlarda təşəkkül tapmış ən müqəddəs hisslərdən biridir. Xalq şairi S. Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı əsərində yazırdı ki, insan hissləri içində ən müqəddəs, ədəbi, tərəqqi və inkişafa təkan verən amillərdən biri, bəlkə də ən mühümü vətənsevərlikdir. Xalq eşqi, Vətən məhəbbəti insanın həyat nəfəsidir. İnsan ömrünün ən böyük zinəti, onu yaşadan ən qadir qüvvə vətənsevərlik hissidir, bu hiss bugünkü körpələr nəslinin təlim və tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır" [12, s.343].

Vətənpərvər insan ölkəsinin layiqli vətəndaşıdır. Belə bir fikir doğrudur ki, "Kollektiv qarşısında, vətən və xalq qarşısında borc hissi, öz yurdunu, torpağını qorumaq uğrunda fədakarlıq fəaliyyətində milli kökə, milli ənənələrə bağlılıq ləyaqətli vətəndaşın xarakterik keyfiyyətləridir" [9,s.7].

Vətənpərvərlik tərbiyəsinin sistem halına gəlməsi, onun insanlarda bir əqidəyə çevrilməsi insan cəmiyyətinin sivil inkişaf tarixi ilə bağlıdır. Çünkü vətənpərvərlik ideologiyası olmadan dövlətin uğurlu siyasəti öz müsbət həllini tapa bilməz.

Elmi ədəbiyyatda problemin qoyuluşu müxtəlif mövqelərdən dəyərləndirilir, tərbiyənin geniş və məhdud mənada iş formaları barədə konkret açıqlamalar bildirilir.

A. Abbasov tərtib etdiyi "Müxtəsər konspekt və sxemlər" kitabında pedaqogikanın müxtəlif terminlərinə aydınlıq gətirərkən demişdir: "Tərbiyə (geniş mənada) dedikdə, ailədə və tədris-tərbiyə müəssisələrində müvafiq keyfiyyətləri formalaşdırmaq, bilik, bacarıq və vərdişlər aşılamaq məqsədilə həyata keçirilən xüsusi təşkil olunan proses, sistemli, ardıcıl, fasiləsiz və mütəşəkkil şəkildə göstərilən (idarə olunan) təsirdir. Sosial mənada tərbiyə yaşlı nəslin qazanmış olduğu təcrübəni gənc nəslə vermişdir" [3, s.17].

Diqqət edildikdə aydın şəkildə görmək mümkündür ki, vətənpərvərlik tərbiyəsinin ilkin əlamətləri, örnəkləri ailədə baş versə də, sistemli təşkili orta ümumtəhsil məktəblərində, xüsusən ibtidai siniflərdə həyata keçirilir.

Vətən əxlaqı, vətənpərvərlik tərbiyəsi daim dünya elmi – pedaqoji fikrinin, ictimai-siyasi araşdırmaçıların diqqət mərkəzində olmuşdur. Bu sahədə qardaş Türkiyə, eləcə rus və Avropa əxlaq nəzəriyyəçilərinin, pedaqoqlarının sanballı araşdırmaları vardır. Görkəmli türk alimi Z. Göyalp "Türkçülüyün əsasları" kitabında vətən əxlaqından, vətənpərvərlikdən danışarkən bir çox vacib məqamlara toxunaraq demişdir: "Keçmiş türklərdə, vətən əxlaqı çox güclüydü. Heç bir türk öz eli üçün, milləti üçün, həyatını, ən sevimli şeylərini qurban verməkdən çəkinməzdi" [15, s.138]. Z. Göyalp türklərin vətən sevgisinə misal olaraq Hun dövlətinin qurucusu Meteni göstərərək bildirir ki, tatar xaqanı, qonşu hökmdar müharibə açmaq, torpaq bəhanəsilə əvvəlcə Metenin əfsanəvi, çox sevdiyi atını, daha sonra sevgili hərəmini istəyir. Hökmdar Mete bəylərin kəskin etirazlarına baxmayaraq, razılığını bildirir, qonşu hökmdarın tələblərinə əməl edir. Qonşu hökmdar bunlarla rahat olmayıb bir qədər sonra Hun ölkəsindən heç bir məh-

sulu olmayan, əkinə, yararsız ərazini, bir parça torpağı tələb edir. Bu zaman Hun hökmdarı Metenin fikirləri türklərin vətən əxlaqına, vətənpərvərliyinə əyani misaldır. Z. Göyalp Metenin bəylər, ordu qarşısında fikirlərini belə təqdim edir: "Mete,: "Vətən bizim mülkümüz deyildir. Məzarlıqlarda yatan atalarımızın və qiyamətə qədər anadan olacaq nəsillərimizin bu müqəddəs torpaqlarda haqqı, hüququ vardır. Vətəndən bir qarış qədər torpaq verməyə heç kimsənin hüququ, ixtiyarı yoxdur. Buna görə də, savaşacağıq, odur ki, mən atımı düşmənə doğru sürürəm, arxamca gəlməyən edam olunacaqdır.", – deyərək tatarların üzərinə yürüdü. Əski türklərin gözündə vətənin nə qədər dəyərli olduğunu, bu tarixi olaydan anlamaq mümkündür" [15, s.138-139].

Yetişməkdə olan nəslin vətənpərvərlik tərbiyəsi ilə bağlı rus və Avropa alimlərinin, pedaqoqların araşdırmaları, dəyərləndirmələri də böyük maraq doğurur. Rus alimlərinin, eləcə də, rus dili alimlərin pedaqogikaya dair dərslik, yaxud monoqrafiyalarında vətənpərvərlik tərbiyəsində xüsusi diqqət yetirilmiş, buna müəyyən qədər aydınlıq gətirilmişdir.

**Problemin elmi yeniliyi.** Dövlət müstəqilliyi bərpa edildiyindən sonra vətən, vətənpərvərlik tərbiyəsinin qoyuluşuna, problemin həlli məsələlərinə yeni elmi–pedaqoji baxış formalaşdırılmışdır. Yetişməkdə olan gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında, müstəqil Azərbaycan dövlətinin dünya ölkələri sırasında öz layiqli yerini tutması pedaqoji fikrin işığında elmi nəzəri cəhətdən şərh edilmiş, 44 günlük Vətən savaşının nəticələrinin məktəblilərin vətənpərvərlik tərbiyəsində həlledici əhəmiyyəti göstərilmişdir.

**Problemin elmi aktuallığı.** Mövzunun elmi aktuallığını əsaslandıran xüsusi cəhət ondan ibarətdir ki, son illər ölkəmizdə, eləcə də dünyada gedən ictimai-siyasi proseslər hadisələrə daha dərindən, miqyaslı şəkildə yanaşmağı, təhlillər aparmağı, yeni inovativ dəyərləndirmələr, metodlar tələb etməkdədir. Odur ki, elmi-nəzəri təhlillər real hadisələrlə əlaqələndirilməli, məntiqi nəticələr, elmi qənaətlər əsasında planlar qurulmalı, hədəflər müəyyənləşdirilməlidir.

**Nəticə**

Deyilənlər, araşdırmalar bir daha sübut edir ki, şagirdlərin, xüsusən kiçik yaşlı məktəblilərin vətənpərvərlik tərbiyəsi sistemli şəkildə həllini tapmalı, ictimai-siyasi proseslərin tərbiyə işində mənfi, yaxud, müsbət təsiri nəzərdən qaçırılmamalıdır. Yaradıcı, öz işinin öhdəsindən gəlməyi bacaran elmi və əməli vərdişlərə yiyələnən pedaqoqlar, müəllimlər prosesə yaradıcı şəkildə yanaşır, düzgün nəticələr əldə etməyə nail olurlar. Yola saldığımız, xalqımızın mentalitetinə yabancı olan təsirlər nəticəsində uzun illər siyasi basqıların nəticəsində səhv qərarların acısını həm həyatda, həm də tərbiyə prosesində yaşamış, milli-mənəvi dəyərlərdən daha çox beynəlmiləl tərbiyə təbliğatı nəticəsində yalançı sovet vətənpərvərliyini tədris, təbliğ və tərbiyə etməli olmuşuq.

## Ədəbiyyat


1. Agayev, M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil:/ M.H. Ağayev. –Bakı: APİ nəşri, –2021. –178 s.
2. Abbasov, A.N. Pedaqogika: Dərslik / A.N .Abbasov. –Bakı: Mütərcim, –2013. –358 s.
3. Abbasov, A N. Pedaqogika: Müxtəsər konspekt və sxemlər / A.N. Abbasov. –Bakı: Mütərcim, 2007. -80 s.
4. Axundov, M.F. Seçilmiş əsərləri / M.F. Axundov. –Bakı: Yazıçı, –1987. –368 s.
5. Abdinova, S.Ə. İbtidai təhsil səviyyəsində şagirdlərin vətənə məhəbbət ruhunda tərbiyəsi üzrə işin sistemi: /pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası / –Bakı, 2021. –164 s
6. Əhmədov, H .H. Pedaqogika. Dərs vəsaiti / H.H. Əhmədov. –Bakı: ABU, –2006. –296 s.
7. Əliyev, H.Ə. Təhsil millətin gələcəyidir / H.Ə. Əliyev. –Bakı: Təhsil, –2002. –580 s.
8. Əliyev, İ.H. İnkişaf məqsədimizdir: Yüz iyirmi üçüncü kitab-oktyabr –2022, noyabr 2022 / İ.H. Əliyev. –Bakı: Azərnəşr, –2022. –392 s
9. Əliyev, A.X .Vətəndaşlıq ləyaqəti üzrə işin təşkili / A.X. Əliyev. – Bakı: Adiloğlu, –2005. –136 s.
10. Əliyev, P.B. Tam orta təhsil səviyyəsində təhsilalanların hərbi vətənpərvərlik işinin sistemi / P.B. Əliyev. –Bakı: H-PRİNT STUDİO, –2020. –254 s.
11. Hacıyeva, Z. İbtidai siniflərdə vətənpərvərlik tərbiyəsinin əsas xüsusiyyətləri / Z. Hacıyeva. –Bakı: Qızlar Universiteti. Elmi Xəbərlər, –2013. c-10 , N-2, –263-276 s.
12. Həsənov, M.A .Pedaqogika / A.M. Həsənov, Ə.Ə. Ağayev . –Bakı: Nasir, –2007. –346 s.
13. İldırım , A .Seçilmiş əsərləri / A. İldırım. –Bakı: Öndər, –2004. –60 s.
14. Səhhət, A. Seçilmiş əsərləri / A. Səhhət. –Bakı: Lider ,-2005. -456 s.
15. Göyalp, Z. Türkçülüyün əsasları. / Z. Göyalp. –İstanbul: –2014. –168 s.
16. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri / K.D. Uşinski. –Bakı: Azərnəşr, –1953. –314 s.


**Redaksiyaya daxil olub:** 20.10.2025